# Avropa Oyunlarının əfsanələri "Azercell"də qonaq oldular

## *Paralimpiya üzrə idman ustaları şirkət əməkdaşları ilə görüş keçirdilər*



İyunun 3-də "Azercell Telekom" MMC-də çox maraqlı və səmimi görüş keçirilib. İlk Avropa Oyunlarında Azərbaycanı uğurla təmsil edən Milli Paralimpiya Komitəsinin idmançıları və rəhbərliyi şirkətdə qonaq olublar.

"Azercell"in baş ofisində keçirilən görüşdə əvvəlcə ilk Avropa Oyunlarının açılış mərasimindən kadrlar, əməkdar idman ustası İlham Zəkiyevin məşəli yandırması, onun və digər paralimpiyaçılarımızın keçirdikləri oyunlar, medalları təqdimetmə mərasimlərini əks etdirən videoçarx nümayiş etdirilib. "Azercell" əməkdaşları qonaqları ayaqüstə, böyük coşqu ilə alqışlayıblar. Şirkətin prezidenti Vahid Mürsəliyev idmançıları Avropa Oyunlarında qazandıqları böyük nailiyyətlər münasibətilə təbrik edib.

O qeyd edib ki, paralimpiyaçılarımız İlham Zəkiyev, Səbinə Abdullayeva və Zakir Müslümovun əsrarəngiz qələbələri çox böyük sevincə səbəb oldu. "Azercell" prezidenti hazırda Uşaq Paralimpiya Komitəsində 50 yeniyetmənin məşğul olduğunu xatırladaraq şirkətin bundan sonra da onlara dəstək olacağını bəyan etdi: "Bu, həmin uşaqların həyata ikinci vəsiqə alması deməkdir. Onlara da dəstək olmaq bizim üçün çox önəmlidir və inanırıq ki, onlar hələ çox yerdə Azərbaycan bayrağını dalğalandıracaqlar".

Milli Paralimpiya Komitəsinin prezidenti, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov isti və səmimi qəbula görə bütün "Azercell" ailəsinə təşəkkürünü bildirdi: "Görürəm ki, bizim zalda keçirdiyimiz həyəcan artıq oyunların divarlarından kənara çıxıb. "Azercell" hələ 2008 Pekin Paralimpiya Oyunlarında paralimpiyaçıların iştirakını dəstəkləmişdi. Ümid edirəm ki, bu əməkdaşlıq davam edəcək. Avropa Oyunlarının Azərbaycanda paralimpiya hərəkatına çox müsbət təsiri olub. Məsələn, əlil insanlar da rahatlıqla oyunlara tamaşaçı qismində qatıla biliblər. Bundan əlavə, ilk dəfə olaraq Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti tərəfindən Azərbaycanın dövlət başçısı İlham Əliyevə Ali mükafat təqdim olunub. Nazir müavini qeyd etdi ki, artıq paralimpiya üzrə dünya miqyaslı tədbirlərin Bakıda keçirilməsi üçün müraciətlər edilir.

Daha sonra görüşdə iştirak edən idmançılar "Azercell" əməkdaşlarının suallarını cavablandırıblar. Cüdo üzrə ikiqat paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev dedi ki, açılış mərasimində məşəl daşıyacağı barədə məlumatı 3 ay hər kəsdən gizlədib. Çempion titulunu qazandıqdan sonra isə dövlət başçısından onunla kürsüyə çıxmasını xahiş edib: "Onda möhtərəm Prezidentə dedim ki, cənab Ali Baş Komandan, əsgər Zəkiyev döyüş tapşırığını yerinə yetirdi. Çünki mən qızıl medal almağa söz vermişdim".

Cüdo üzrə ikiqat dünya çempionu, üçqat gümüş medalçı və Bakı 2015 Avropa Oyunlarının gümüş medal mükafatçısı Səbinə Abdullayeva bu idman növünü seçməyinin tarixindən söz açıb.

Görüşün sonunda idmançılara "Azercell"dən hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

***"Azərbaycan"***